# BakuBuild

ufi Approved Event

24-cü Azərbaycan Beynəlxalq

# İNŞAAT SƏRGİSİ

23 – 26 oktyabr 2018

Bakı Ekspo Mərkəzi

## SƏRGİ ÜZRƏ HESABAT

www.bakubuild.az

BakuBuild Azerbaijan

Iteca Caspian

# SƏRGİ HAQQINDA

BakuBuild Azerbaijan

24-cü Azərbaycan Beynəlxalq

## İNŞAAT SƏRGİSİ

**23 - 26 OKTYABR 2018**

BAKI, AZƏRBAYCAN

www.bakubuild.az



**XƏZƏR REGİONUNUN İNŞAAT SAHƏSİNDƏKİ ƏN BÖYÜK TƏDBİRİ**

**BAKUBUILD AZERBAIJAN**

**SƏRGİSİ, TİKİNTİ VƏ MEMARLIQ, DİZAYN VƏ TƏMİR SAHƏSİNDƏ BÜTÜN BÖLGƏNİN ƏN VACİB PEŞƏKAR HADİSƏSİDİR.**

HƏR İL MÜXTƏLİF ÖLKƏLƏRDƏN GƏLƏN, İŞGÜZAR TƏRƏFDAŞLARI TAPAN, MİNLƏRLƏ MÜTƏXƏSSİS SƏRGİNİ ZİYARƏT EDİR.





# RƏSMİ AÇILIŞ MƏRASİMİ



## 23 OKTYABR 2018, BAKI EKSPO MƏRKƏZİ













## AÇILIŞ MƏRASİMİNİN İŞTİRAKÇILARI:

- **cənab Niyazi Səfərov**, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini
- **cənab Dövlətxan Dövlətxanov,** Dövlət Memarlıq və Şəhərsalma Komitəsinin sədr müavini
- **cənab Elxan Əsədov,** Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin sədr müavini
- **cənab Fərhad Mollazadə,** Memarlar İttifaqının katibi
- **cənab Edvard Stroon** “Iteca Caspian”, şirkətinin Baş direktoru

# VİP QONAQLARIN RƏYLƏRİ





"Regionda ən böyük inşaat sərgilərindən hesab olunan "BakuBuild Azerbaijan" əlverişli platformadır. İqtisadiyyat Nazirliyinin də dəstək göstərdiyi Beynəlxalq İnşaat Sərgisi peşəkarları bir araya gətirərək, inşaat, layihələndirmə və memarlıq sahələrində son yenilikləri nümayiş etdirir. Uzun illərdir ki, ən çox ziyarət edilən sərgilərdən olan "BakuBuild Azerbaijan"da bu il 20-dən çox ölkədən 300-ə yaxın şirkət təmsil olunur. Xarici şirkətlərlə yanaşı, yerli iş adamları da "BakuBuild Azerbaijan" Sərgisində daim fəal iştirak edirlər. Bu ilki Sərgidə Azərbaycan şirkətlərinin öz məhsullarını "Made in Azerbaijan" brendi ilə təqdim etməsi ölkəmizin sənaye sahəsində qazandığı uğurların, eləcə də milli brendimizin təbliği baxımından xüsusilə önəmlidir. Bu cür nüfuzlu sərginin davamlı olaraq Bakıda keçirilməsi ölkəmizin regionun iqtisadi və mədəni mərkəzi olduğunun daha bir göstəricisidir. Sərgi iştirakçılarına səmərəli əməkdaşlıq, yeni işgüzar əlaqələr və biznes uğurları".

**Şahin Mustafayev,**
**Azərbaycan Respublikasının İqtisadiyyat naziri**

---



""Iteca Caspian" şirkətinin artıq üçüncü onillikdir ki, ölkəmizdə təşkil etdiyi çoxsaylı ixtisaslaşmış sərgilər sırasında tikinti sahəsində fəaliyyət göstərən şirkətlərin və peşəkarların böyük marağına səbəb olaraq onları öz sıralarına cəlb edən Azərbaycan Beynəlxalq İnşaat Sərgisi bu sahədə ən iri və ən uğurlu layihələrdən biridir. 24-cü dəfə təşkil olunan bu sərgi hər il həm həcmi baxımından, həm də iştirakçıların coğrafiyası baxımından böyüməkdə davam edir, və dünyanın ən nüfuzlu biznes dairələrinin Azərbaycan iqtisadiyyatına diqqətini getdikcə artırır. Azərbaycan Beynəlxalq İnşaat Sərgisi tikinti materiallarının istehsalı, bu sahədə müvafiq xidmətlərin göstərilməsi, layihələndirmə və tikintinin təşkili istiqamətlərində fəaliyyət göstərən iş adamlarını, aidiyyəti qurumları və mütəxəssisləri bir araya gətirərək sektorun müasir inkişaf vektorları, yeni texnologiyalar və əməkdaşlıq üçün açıq layihələrlə tanış olmaq üçün geniş imkanlar təmin edən peşəkar tədbirdir".

**Samir Nuriyev,**
**Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri**

---



""BakuBuild Azerbaijan" sərgisi memarlıq-inşaat, layihələndirmə və təmir sahəsində mühüm peşəkar tədbir kimi Azərbaycanda inşaat sektorunda gedən islahatları əyani olaraq əks etdirir, yerli və xarici sərmayəçilər üçün yeni imkanlar açır. Ənənəvi olaraq keçirilən beynəlxalq sərgilər, işgüzar görüşlər ölkə iqtisadiyyatına artan marağın göstəricisi olmaqla yanaşı, həm də sahibkarların fəaliyyətinin genişlənməsində xüsusi önəm kəsb edir. Bu baxımdan, "BakuBuild Azerbaijan" sərgisi iş adamları arasında əlverişli işgüzar əlaqələrin qurulmasında və genişləndirilməsində çox faydalıdır. Ölkəmizdə inşaat sektorunun hərtərəfli, sürətli və dinamik inkişaf etdiyi bir vaxtda "BakuBuild Azerbaijan" Beynəlxalq İnşaat Sərgisinin Azərbaycanda keçirilməsi xüsusi əhəmiyyət kəsb edir".

**Sadiq Sadıqov,**
**Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri**

# VİP QONAQLARIN RƏYLƏRİ



"Azərbaycan paytaxtında keçirilən "BakuBuild Azerbaijan" 2018, 24-cü Azərbaycan Beynəlxalq İnşaat, "Securika Caspian" 2018, 11-ci Xəzər Beynəlxalq Mühafizə, Təhlükəsizlik və Xilasetmə vasitələri və "Caspian MebelExpo" 2018, Xəzər Beynəlxalq «Mebel, İnteryer və Dizayn» sərgilərin önəmini vurğulamaq istərdim. 22 ölkəni təmsil edən 300-ə yaxın şirkətin iştirak etdiyi sərgidə tikinti, memarlıq, layihələndirmə və təmir işləri sahəsində geniş çeşidli məhsul və xidmətlər təqdim olunur. Bu il təşkil olunan sərgi əvvəlkilərdən yerli və xarici şirkətlərin təqdim etdiyi bir çox yeniliklərlə də fərqlənir".

**Orxan Məmmədov,**
**Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri**



"BakuBuild Azərbaycan Beynəlxalq İnşaat Sərgisi artıq dünyada bu kimi sərgilərin ən nüfuzlularından birisi olmuşdur. Bunun əsas səbəbi – Azərbaycan Respublikasının dünyada qazandığı yüksək nüfuzu və həyatımızın hər bir sahəsində olduğu kimi, inşaat və memarlıq istiqamətlərində də əldə etdiyi yüksək nailiyyətlərdir".

**Elbay Qasımzadə,**
**Azərbaycan Memarlar İttifaqının İdarə heyətinin Sədri**



"İnşaat sənayesinin dinamikasını əyani nümayiş etdirən "BakuBuild Azerbaijan" sərgisi regionun ən mühüm tədbirinə çevrilmişdir və hər il yerli və xarici qonaqlara dünyanın və respublikamızın bu sahədəki son nailiyyətlərini təqdim edir. Bizim üçün çox sevindirici haldır ki "BakuBuild Azerbaijan" sərgisinin vasitəsi ilə yeni şirkətlər Azərbaycan bazarına qədəm qoyur və yaradılan imkanlar nəticəsində uğurlu əməkdaşlığı inkişaf etdirilər. Sərgidə iştirak etməklə, şirkətlər məhsullarını və xidmətlərini təqdim etmək, sualları cavablandırmaq, problemləri müzakirə etmək və birbaşa istehlakçılarla üz-üzə görüşmək imkanını əldə etmiş olurlar. Tədbirin yüksək səviyyədə təşkili və yaradılan işgüzar mühit bu məqsədləri həyata keçirməyə tam şərait yaradır".

**Məmməd Musayev,**
**Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Prezidenti**

# SƏRGİNİN BÖLMƏLƏRİ



- İNŞAAT MATERİALLARI
- SANİTARİYA
- DAM ÖRTÜKLƏRİ VƏ İZOLYASİYA
- İNTERYER. BƏZƏK MATERİALLARI. DİZAYN
- BOYALAR, LAKLAR VƏ ÖRTÜKLƏR
- LANDŞAFT MEMARLIĞI VƏ DİZAYN
- KOTTECLƏR (Taxta evlər. Prefabrik evlər. Hamamlar. Köşklər)
- FASADLAR, PƏNCƏRƏLƏR, QAPILAR
- METALIN HƏDDƏLƏNMƏSİ:
- İŞIQ VƏ ELEKTRİK MƏHSULLARI
- EKOLOJİ TİKİNTİ
- İNŞAAT VƏ XÜSUSİ TEXNİKA
- İNŞAAT AVADANLIQLARI VƏ TEXNOLOGİYALAR

# PR VƏ SƏRGİNİN İŞIQLANDIRILMASI



Sərgilərin açılışına həsr olunmuş mətbuat konfransı keçirilib.

MƏTBUAT-KONFRANSININ IŞTIRAKÇILARI:

- **Edvard Stron** – “Iteca Caspian” şirkətinin baş direktoru
- **Maya Qafarlı** – “BakuBuild Azerbaijan” və “Securex Caspian” sərgisilərinin meneceri
- **Rəşad Qədimov** – “Aquatherm Baku” sərgisinin meneceri

Mətbuat konfransında **20-dən artıq KİV** nümayəndələri iştirak etmişdi, onların arasında AzTv, Azertag, CBC, ITV, Interfax, Sputnik, Report, TREND, Asan Radio, WorldEconomics və s.

**9 qəzet və 8 jurnalda**
**20 məqalə** nəşr olunmuşdur

**53 internet portalında**
**114 xəbər** yayımlanıb

**8 televiziya kanalı**
gündəlik xəbərlərdə sərgilər haqqında
**22 video süjet göstərib**










BAŞ İNFORMASİYA TƏRƏFDAŞI

İNFORMASİYA DƏSTƏYİ

İNFORMASİYA TƏRƏFDAŞLARI

İNTERNET DƏSTƏYİ

# BAKUBUILD AZERBAIJAN 2018
# FAKTLAR VƏ RƏQƏMLƏR



## İŞTİRAKÇILAR

| | |
|---|---|
| İştirakçılarının sayı: | : 219 |
| İştirakçı ölkələrin sayı | : 23 |
| Milli və regional qruplar | : 6 |
| Sərginin sahəsi | : 6059 $m^2$ |

## İŞTİRAKÇI ÖLKƏLƏR:

- Avstriya
- Azərbaycan
- Almaniya
- Yunanıstan
- Danimarka
- İsrail
- İran
- İtaliya
- Qazaxıstan
- Kanada
- Çin
- BƏƏ
- Polşa
- Belarus Respublikası
- Rusiya
- Sloveniya
- ABŞ
- Türkiyə
- Ukrayna
- Finlandiya
- Fransa
- Çex respublikası
- Yaponiya

## ZİYARƏTÇİLƏR

Ziyarətçilərin sayı **: 8 889**

Ziyarətçilərin **90%-ni** professional qonaqlar təşkil edir.

## ÖLKƏLƏRİN SAYI: 36

- Albaniya
- Əlcəzair
- Azərbaycan
- Bəhreyn
- Belarus Respublikası
- Belçika
- Böyük Britaniya
- Almaniya
- Yunanıstan
- Gürcüstan
- Danimarka
- İsrail
- Hindistan
- İraq
- İran
- İspaniya
- İtaliya
- Qazaxıstan
- Kanada
- Çin
- Latviya
- Şri Lanka
- Niderland Krallığı
- BƏƏ
- Pakistan
- Polşa
- Portuqaliya
- Rusiya
- Səudiyyə Ərəbistan
- Türkiyə
- Özbəkistan
- Ukrayna
- Çex Respublikası
- İsveçrə
- Nepal
- Estoniya

# BAKUBUILD AZERBAIJAN 2018 SƏRGİSİNİN SEÇİLMİŞ ZİYARƏTÇİLƏRİ



| | |
|---|---|
| **PASHA CONSTRUCTION** | – Kommersiya üzrə director/Təchizat müdiri |
| **AKABE INSHAAT** | – Direktor müavini |
| **BEHRUD INSHAAT** | – Prezident |
| **CAHAN HOLDING** | – Prezident/Vitse-prezident |
| **CASPIAN CONSTRUCTION SYSTEMS MMC** | – Direktor |
| **GILAN CONSTRUCTION** | – Təchizat şöbəsinin müdiri |
| **INNOVA CONSTRUCTION** | – İnşaat işlərinin müdiri/Mühəndis |
| **KONTINENT CONSTRUCTION** | – Təchizat üzrə menecer |
| **KRISTAL ABŞERON MTK** | – Təchizat şöbəsinin müdiri |
| **LUXE HOME MTK** | – CEO |
| **MCG - MODERN CONSTRUCTION GROUP, LLC** | – Təchizat üzrə menecer |
| **MELISSA GROUP** | – Təchizat şöbəsinin müdiri |
| **METAK MMC** | – Təchizat üzrə menecer |
| **PASHA CONCRETE** | – Təchizat şöbəsinin müdiri |
| **YENI HAYAT GROUP OF COMPANY / HAYAT PALACE** | – Layihə rəhbəri |
| **LERUA MERLEN VOSTOK** | – Təchizat üzrə mütəxəssis |
| **AGSARAY RESIDENCE** | – İnvestor |
| **AKSESUAR INSHAAT** | – Marketinq meneceri |
| **AS GROUP INVESTMENT LLC** | – Direktor müavini/Şöbə müdiri |
| **PAY GROUP LLC** | – Baş direktor |
| **QARACAY HOLDING** | – CEO |
| **RICH INTERIOR** | – İcraçı direktor |
| **SANTEMAX** | – Satış üzrə müdir |
| **SIMFONIYA** | – Direktor |
| **TEFKEN CONSTRUCTION** | – Təchizat üzrə mütəxəssis |

*Ziyarətçilərin ətraflı siyahısı sorğu üzrə təqdim olunur

# İŞTİRAKÇILARIN RƏYLƏRİ





"Biz "BakuBuild Azerbaijan" sərgisində hər il iştirak edirik. Hesab edirəm ki, sərgidə iştirakın üstünlükləri qeyri-məhduddur. Bunlar arasında nüfuzun artırılması, yaxşı reklam, tərəfdaş bazasının və satışların həcminin artırılması yer alır. Sərgidən əldə edilən səmərəli nəticəni hiss etmək üçün ilk növbədə stendin yerləşdiyi yeri, onun ekspozisiyasını, habelə qonaq və tərəfdaşlara peşəkar məlumat verə biləcək nümayəndələrin sayını düzgün seçmək lazımdır".

**Rüstəm Məmmədov,**
**"Fab Boya" şirkətində**
**Reklam departamentinin direktoru**



"Ötən il biz ilk dəfə sərgidə iştirak etmişik və bu, Azərbaycanda keçirilən "WorldBuild Baku 2017" sərgisi olmuşdur. Biz bunu yaxşı təcrübə hesab edirik. Bu il isə biz həm mövcud tərəfdaşlarımız, həm də maraqlı tərəflər ilə işgüzar əməkdaşlıq üçün yeni şirkətlərlə görüşlər keçirmək niyyətindəyik".

**Marjan Brençiç,**
**"TRGO-MOKK" şirkətinin Baş meneceri**



Şərq ilə Qərb arasında körpü funksiyasını yerinə yetirən Azərbaycan yeni məhsul və ideyaları "Made Italy" ("İtaliyada istehsal edilib") brendinin hətta tanınmadığı ölkələrdə də təşviq etmək üçün ideal məkandır.

**Andrea Kontini,**
**İxrac üzrə satış meneceri, Cavatorta Group**



"Biz Bakı bazarında debüt edirik. Qeyd edim ki, sərginin ilk günü yaxşı nəticə verib. Biz tərəfdaş tapmışıq və gələcək planlarımızı müzakirə etmişik. Sərgi məlumat mübadiləsi, məhsulların nümayiş olunması, brendin təbliği və işgüzar danışıqların aparılması üçün əla imkandır".

**İqor Jelezovski,**
**"Uralski qranit" ("Ural qraniti") şirkətinin**
**Baş direktorunun marketinq və satış üzrə müavini**



Azərbaycanda inşaat sənayesinin inkişafı baxımından "BakuBuild Azerbaijan" sərgisinin oynadığı rolu lazımınca qiymətləndirməmək mümkün deyil. Bütün dünya ölkələrini təmsil edən eksponentlərin iştirakı həm yerli iqtisadiyyatın bu sektorunun, həm də bilavasitə iştirakçı şirkətlərin inkişafı və artımı üçün geniş imkanlar yaradır.

**Viktor Dargel,**
**Baş direktor, SimemSolutions**



"Biz sərgidə debüt edirik. Sərginin ilk iş gününün nəticələrindən razıyam, biz qarşıya qoyduğumuz məqsədlərə nail olmuşuq və potensial tərəfdaşlar ilə əlaqələri yeniləmişik".

**Fatimə Süleymanova,**
**"Abris" şirkətinin direktoru**

# ZİYARƏTÇİLƏRİN RƏYLƏRİ





"Mən memaram və layihə bürosunda çalışıram. Sərginin məzmunu mənə yaxındır və buna görə də mən bu tədbiri hər il ziyarət edirəm. Sərgi bizə əla fürsət yaradır. Mən məhsulun keyfiyyətini, eləcə də onun xüsusiyyətini dəyərləndirərək, digər analoji istehsalçılar ilə müqayisə edə və qiymətə gör öz təhlilimi apara, habelə gələcəkdə düzgün seçim edə bilərəm".

**Səbuhi Vəliyev,**
**Bakı**



"Burada əməkdaşlıq qurmaq üçün yaxşı şərait yaradılıb. Artıq müəyyən əlaqələr qurulub, münasibətlərin gələcək inkişafın ümid edirik. Orijinal konsepsiyalı və inkişaf perspektivləri olan tədbiri bəyəndik. Ümumilikdə, sərgiləri ziyarət etməyin özümüz üçün faydalı hesab edirik.
Bu tədbirlərdə iştirak şirkətin nüfuzuna hesablanmış mühüm marketinq gedişidir. Hər iki halda fayda əldə etmək mümkündür".

**Olqa Şevçuk, Svetlana Buşkovskaya,**
**Rusiya**



"Mən Rusiyanın inşaat şirkətinin satış üzrə meneceri kimi Bakıya ilk dəfə gəlmişəm. "BakuBuild Azerbaijan" sərgisi bizim məhsulların (keramika, vanna otağı üçün keramik fittinqlər/ sanfayans/, plastik) yeni istehsal və satış bazarlarını tapmağa kömək edir və mən hesab edirəm ki, bu bazarlardan biri də dinamik şəkildə inkişaf edən Azərbaycan ola bilər"

**Vladimir Qorelov,**
**Rusiya Federasiyasını təmsil edən inşaat şirkətinin əməkdaşı**



"Yüksək təşkilatçılıq səviyyəsinə görə minnətdarlığımızı bildiririk. Sərgi bir sıra maraqlı və faydalı məlumatları toplamaq üçün rahat bir mühitdir. Bu isə bir daha təsdiq edir ki, sərgi istənilən sahədə əvəzolunmaz mütərəqqi inkişaf vasitəsidir".

**Aleksandr Skoroxodov,**
**Belarus**

securex Caspian

12-ci Xəzər Beynəlxalq Mühafizə, Təhlükəsizlik və Xilasetmə Vasitələri Sərgisi

**Xəzər Beynəlxalq Mühafizə, Təhlükəsizlik və Xilasetmə Vasitələri Sərgisi «SECUREX CASPIAN»- Azərbaycan və Cənubi Qafqaz regionunda təhlükəsizliyə həsr olunmuş yeganə beynəlxalq ixtisaslaşdırılmış sərgidir.**

Regionda ən böyük İnşaat Sərgisi olan - “BakuBuild Azerbaijan” ilə birlikdə keçirilir ki, bu da hər iki sahənin mütəxəssislərinə işgüzar əməkdaşlıq üçün unikal imkanlar yaradır.




## SƏRGİNİN ƏSAS BÖLMƏLƏRİ:

- TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİ ÜÇÜN TEXNİKI VASİTƏLƏR
- MÜHAFİZƏ TELEVİZİYASI VƏ MÜŞAHİDƏ SİSTEMLƏRİ
- MƏLUMATLARIN MÜHAFİZƏSİ. MİKRO-PROSESSORLU "SMART" KARTLAR. İDENTİFİKASİYA TEXNOLOGİYALARI. BANK AVADANLIĞI
- YANĞIN TƏHLÜKƏSİZLİYİ. QƏZA-XİLASETMƏ TEXNİKASI. ƏMƏYİN MÜHAFİZƏSİ



# SƏRGİ ÜZRƏ İŞGÜZAR PROGRAM:

## SƏRGİ +

"BAKUBUILD AZERBAIJAN" SƏRGİSİ ÇƏRÇİVƏSİNDƏ BİR SIRA ƏLAVƏ TƏDBİRLƏR KEÇİRİLİB.



## İKİTƏRƏFLİ İŞGÜZAR GÖRÜŞLƏR

"BakuBuild Azerbaijan 2018" sərgisi çərçivəsində 22 dəvətli və 24 iştirakçı şirkətin qatıldığı "B2B" formatlı görüşlər təşkil olunub. "B2B" formatlı görüşlərin gedişatında sərgi iştirakçıları öz potensial müştəriləri ilə 120-dən artıq səmərəli görüş keçirib.
Bu tədbir sayəsində iştirakçı şirkətlər onlar üçün uzaq olan hədəf auditoriya ilə görüşür və qısa zaman ərzində çoxsaylı səmərəli görüşlər keçirir.

## İŞGÜZAR SƏHƏR YEMƏYİ

Tədbirdən bir ay əvvəl, "BakuBuild Azerbaijan 2018" sərgisinin iştirakçıları üçün sərgilərdə daha səmərəli iştirak mövzusunda söhbət etmək məqsədi ilə işgüzar səhər yeməyi təşkil edilib. Bu seminarın gedişatında xüsusi olaraq dəvət edilmiş təlimatçı sərgidə iştirak sayəsində maksimum nəticə əldə etmək üçün əlavə imkan və vasitələr barədə ətraflı məlumat verib. İşgüzar səhər yeməyi əsnasında iştirakçıları maraqlandıran məsələlər gündəmə çıxarılıb və müzakirə edilib.
Həmçinin tədbir zamanı sərgi təşkilatçılarının iştirakı ilə bir sıra tanışlıq xarakterli çıxışlar səslənib. Seminardan sonra sərgi iştirakçılarının bir-biri ilə ünsiyyət qurması və tanışlıq əlaqələri yaratması üçün əlverişli şərait yaradılıb.

# SƏRGİNİN AÇILIŞINA HƏSR OLUNMUŞ AXŞAM ZİYAFƏTİ



Sərginin açılışına həsr olunmuş axşam ziyafəti 23 oktyabr tarixində “Hyatt Regency” otelində keçirilib.

Bu tədbirdə 400-dən artıq qonaq, o cümlədən sərgi iştirakçıları, rəsmi şəxslər, səfirlik təmsilçiləri, “Iteca Caspian LLC” şirkətlərinin tərəfdaşları, habelə kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.





























# SƏRGİ ÜZRƏ İŞGÜZAR PROGRAM:

## TEST OTAĞI

Sərginin ikinci və üçüncü iş günü foyedə xüsusi Test otağı yaradılıb. Bu tədbirdə iştirak sayəsində sərgi iştirakçıları öz məhsul və xidmətlərinin iş prinsipini "BakuBuild Azerbaijan 2018" sərgisinin ziyarətçilərindən ibarət ixtisaslaşmış auditoriya qarşısında nümayiş etdirmək kimi unikal imkan qazanıblar. Ayrı-ayrı şirkətlərin çıxışlarına maraq göstərən ziyarətçilər nümayiş etdirilən məhsullar ilə yaxından tanış olmaq üçün çıxış yerindən birbaşa həmin şirkətlərin stendinə keçiblər.



## FOYEDƏ SON SAAT

Sərginin sonuncu iş günü "BakuBuild Azerbaijan" sərgisinin bütün iştirakçı və təşkilatçılarını 2018-ci ildə keçirilən sərgi zamanı sonuncu dəfə bir araya gətirən "Foyedə son saat" tədbiri təşkil edilib. Bu tədbir sayəsində şirkətlər sərgi ilə bağlı hisslərini və təəssüratlarını həm öz aralarında, həm də təşkilatçılar ilə bölüşə biliblər. "Foyedə son saat" hər şirkət üçün xüsusi olaraq hazırlanmış xatirə fotoşəkil ilə iştirakçıların yaddaşında qalıb.



## SƏRGİ ÇƏRÇİVƏSİNDƏ KEÇİRİLƏN MÜSABİQƏLƏR

İştirakçılar üçün keçirilən tədbirlər ilə yanaşı, Azərbaycan Memarlar İttifaqı ilə əməkdaşlıq çərçivəsində təcrübəli və gənc memarlar üçün müsabiqələr də keçirilib. Təcrübəli memarların iş və layihələri foyedə iştirakçı və ziyarətçilərin diqqətinə təqdim olunub. Bu tədbirlər tanınmış memarları sərgiyə cəlb edərək iştirakçılar ilə əməkdaşlıq üçün münasib şərait yaradıb.



## SƏRGİ ÜZRƏ TANIŞLIQ TURLARI

"BakuBuild Azerbaijan 2018" sərgisinin birinci iş günü inşaat sahəsini təmsil edən Naxçıvanlı sahibkar və iş adamlarından ibarət nümayəndə heyəti tədbiri ziyarət edib. Nümayəndə heyətini yerli və xarici iştirakçı şirkətlər ilə tanış etmək və onların arasında işgüzar münasibətlər qurmaq məqsədi ilə sərgi üzrə xüsusi tanışlıq turu təşkil edilib.



# XÜSUSİ SERTİFİKATLAR



- Nabucco A&C – **“Ən yaxşı korporativ üslub”**
- Mesa Imalat - **“Ən yaxşı stend dizaynı”**
- Uralskiy Granite - **“Ən yaxşı təqdimat”**
- Spancrete - **“Ən yaxşı standart quraşdırma”**
- AAC LLC - **“Müştəriləri cəlb etmək üçün ən yaxşı üsul”**
- Global Interiors Group - **“Ən kreativ stend”**
- Gilan Industrial Group - **“Ən çox ziyarət edilən stend”**
- Mamedov\`s Company - **“Ən parlaq stend”**
- Kaban Makina - **“Ən yaxşı debüt”**
- Hilal Aluminyum - **“Ən yaxşı məhsul təqdimatı”**
- Polish Investment and Trade Agency - **“Ən yaxşı ölkə təqdimatı”**
- HomeWood - **“Ən orijinal stend”**
- AGZ LLC - **“Ən yaxşı şirkət təqdimatı”**
- AZVIRT LLC - **“Ən yaxşı xidmət təqdimatı”**
- Baku Steel Company - **“Uzun müddətli əməkdaşlığa görə”**
- FAB Paints and Chemical Industry - **“Ziyarətçilər ilə ən aktiv işə görə”**
- NB Group - **“Sosial şəbəkələrdə ən aktiv işə görə”**
- ASSA Abloy – **“Ən İnnovativ Şirkət”**



BakuBuild Azerbaijan

## DƏSTƏK

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi

Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

Azərbaycan Memarlar İttifaqı

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası

## TƏŞKİLATÇI

Iteca Caspian

## SPONSOR

Corella

Keyfiyyətimiz fərqimizdir

## RƏSMİ MEHMANXANALAR

QAFQAZ HOTELS & RESORTS

HYATT REGENCY BAKU

## RƏSMİ TURİZM AGENTLİYİ

PREMIER TOUR

## MARKETİNQ TƏDQİQATLARI ÜZRƏ TƏRƏFDAŞ

SIAR RESEARCH & CONSULTING


BakuBuild
ufi Approved Event
25-ci Yubiley
Azərbaycan Beynəlxalq
İNŞAAT SƏRGİSİ
22 - 25 oktyabr 2019
Bakı Ekspo Mərkəzi
25 İL
www.bakubuild.az
BakuBuildAzerbaijan
#BakuBuildAzerbaijan
BakuBuild
ITECA CASPIAN